BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2014*

# TARİX

UOT 94/479.24

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI DÖVRDƏ REPRESSİYALARIN YENİ DALĞASI. HEYDƏR HÜSEYNOV HAQQINDA HƏQİQƏTLƏR

**İ.X.ZEYNALOV, X.R.SƏFƏROVA**
***Bakı Dövlət Universiteti***
***Zeynalovİbrahim@hotmail.com***

*Elmi məqalədə İkinci dünya miiharibəsindən sonrakı dövrdə və 50-ci illərdə totalilar rejimin inzibati amirlik idarəçiliyinin daha da gücləndiyi, Stalinin şəxsiyyətinə pərəstişin artdığı bir şəraitdə Azərbaycanın sosial-siyasi həyatında mövcud vəziyyət, repressiyaların yenidən başlanması məsələləri nəzərdən keçirilir. Burada əsas diqqət M.C.Bağırov və onun əlaltılarının əli ilə xalqımızın görkəmli hökumət, elm, mədəniyyət xadimlərinin təqib edilməsi, çoxunun məhv edilməsi ilə bağlı məsələlərə nəzər yetirilir, Heydər Hüseynovla əlaqədar baş verən hadisələrin öyrənilməsinə yönəldilir.*

**Açar sözlər:** şəxsiyyətə pərəstiş, totalitar rejim, inzibati amirlik, Dövlət Təhlükəsizlik Nazirliyi, "hakim millət", Azərb. KP MK, plenum, marksizm-leninizm, Üİ K(b) P MK, Marks-Engels-Lenin İnstitutu ( MELİ), "Ticarət evi", Azərb. SSR XDİK, büro iclası, vitse-prezident, Stalin mükafatı, SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası, repressiya, SSRİ Nazirlər Soveti.

İkinci dünya müharibəsindən sonrakı dövrdə Azərbaycanın ictimai-siyasi həyatında çox ziddiyyətli və mürəkkəb vəziyyət qalmaqda idi.

Stalinin şəxsiyyətinə daha da güclənən pərəstiş, onun əlaltılarının dövlətçiliyə, demokratiyaya, humanizmə, insanların hüquq bərabərliyinə zidd fəaliyyətləri və özünü Stalinə ən yaxın adam, rəhbər kimi göstərən avantürist Beriyanın cinayətkar hərəkətləri, həmçinin müharibədən sonrakı dövrdə həyata keçirilmiş bir sıra tədbirlər – 1949-cu ilin aprelində milis orqanlarında siyasi idarələrin yaradılması, həmin ilin avqustunda respublikaların paytaxtlarında, o cümlədən Bakıda milisə xüsusi hüquqların verilməsi, oktyabrın 13-də milisin SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeliyinə keçirilməsi və digər tədbirlər

SSRİ-də və müttəfiq respublikalarda totalitar rejimin daha da güclənməsinin əsas təzahürlərindən idi.

Totalitar rejimin sərtləşməsinin təzahürlərindən biri də elm, ədəbiyyat, incəsənət və tarix üzərində "Hakim millət" ideologiyasının başlıca şüara çevrilməsi idi. Şəxsiyyətə pərəstişin, totalitar rejimin ən ağır nəticələri humanitar və bir sıra təbiət elmləri üzərində, xüsusilə də tarix elmində özünü daha bariz göstərirdi.

1949-cu ildə H.N.Hüseynovun "XIX əsr Azərbaycanda ictimai və fəlsəfı fıkir tarixindən" adlı əsəri nəşr olunmuş və o, əsərində Şeyx Şamil hərəkatını çarizmin müstəmləkəçilik siyasətinə qarşı milli azadlıq hərəkatı kimi qiymətləndirmişdi.

Bu ideya M.C.Bağırovu möhkəmcə qəzəbləndirmişdi. O, H.Hüseynovun əsərinə cavab olaraq "Müridizm və Şamilin hərəkatının xarakteri haqqında məsələyə dair'' adlı məqalə çap etdirdi və Heydər Hüseynovu ingilis casusu adlandırdı. M.C.Bagırov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Bakı Komitəsinin (Azərbaycan KP MK və BK) birgə plenumunda (1953, 12-13 iyul) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara qeyri-obyektiv münasibətdə və digər qeyri-insani, qeyri-humanist əməllərində təqsirkar bilinib, on minlərlə Azərbaycan vətəndaşının, yüzlərlə görkəmli ictimai-siyasi və dövlət xadimlərinin, mədəniyyət işçilərinin qanunsuz olaraq məhv edilməsində günahkar hesab edilib, bu kimi cinayətkar əməllərinə görə tutduğu vəzifədən uzaqlaşdırdı. O, bir müddət Kuybışev Neft Birliyinin rəis müavini vəzifəsində işlədi. Bir qədər sonra Bakıda SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən mühakimə edilib, 1956-cı il aprel ayında xalq düşməni elan edilib ölüm cəzasına-güllələnməyə məhkum olundu. Onun mühakimə olunduğu məhkəmə iclaslarının materiallarında M.C.Bağırov Azərbaycan Xalq Cümhuriyyətinin dövründə Quba qəzasının komissarı Əli bəyin müavini olmaqla, onunla birlikdə Quba şəhərində erməni əhalisinə divan tutulmasında iştirakda təqsirləndirilmiş, Lavrenti Beriyaya dair sənədləri gizlətməkdə və ləğv etməkdə ittiham olunmuşdur. Onu da qeyd edək ki, M.C.Bağırov bütövlükdə totalitar sovet rejiminin yetişdirdiyi tipik icraçı bolşevik rəhbər idi.

Məhz bu tipik bolşevik rəhbərin və onun əlaltıları olan Markaryanların, Qriqoryanların, Yemelyanovların, Sumbatov-Toporidzelərin, Atakişiyevlərin əli ilə Azərbaycan xalqının ən qabaqcıl, nüfuzlu şəxsiyyətlərinə, görkəmli elm, mədəniyyət, dövlət xadimlərinə qarşı repressiyalar heyata keçirilmişdir. Repressiya qurbanlarından biri də istedadlı filosof, görkəmli alim və ictimai xadim, akademik Heydər Nəcəf oğlu Hüseynov idi.

Heydər Nəcəf oğlu Hüseynov 1908-ci il aprel ayında Yerevan (İrəvan ş.) şəhərində anadan olmuşdu. O, 1944-cü ildə fəlsəfə elmi üzrə elmlər doktoru alimlik dərəcəsi almaqla, həmin ildə də professor vəzifəsinə irəli çəkilmişdir. 1945-ci ildə isə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. H.Hüseynov 1931-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirmiş, 1931-1933-cü illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspirantura-

sında oxumuş və çox maraqlı elmi araşdırmalar aparmışdır. Həmçinin, o, 1936-1940-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru, 1939-1945-ci illərdə SSRİ EA Azərbaycan fılialının sədr müavini, 1945-1950-ci illərdə isə Azərb. SSR EA-nın vitse-prezidenti və həmin illərdə həm də Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitunun direktoru vəzifələrində çalışmışdır.

H.Hüseynov həm də, S.M.Kirov adına ADU-nun (indiki BDU) fəlsəfə kafedrasının müdiri vəzifəsində işləmişdir.

H.Hüseynovun elmi-tədqiqat fəaliyyəti olduqca çoxşaxəli və zəngin olmuşdur. Onun fəaliyyəti fəlsəfə elminin görkəmli klassiklərinin irsinin öyrənilməsində və təbliğində, Azərbaycan ictimai fıkrinin, ədəbiyyatının, tarixinin tədqidi sahəsində, klassiklərin əsərlərinin tərcümə və nəşrinin təşkilində daha səmərəli olmuşdur və ona böyük uğurlar gətirmişdir. H.Hüseynovun elmi yaradıcılığında fəlsəfi problemlərin araşdırılması və tədqiqi, İkinci dünya müharibəsi mövzusu olduqca mühüm yer tutmuşdur. Onun II Dünya müharibəsi dövründə "Faşizmin məhvi labüddür", "Faşizmin irq nəzəriyyəsi "(1941-1942), "Faşist cəlladlarının fəlsəfəsi"(1941), "Faşizm elmin düşmənidir" (1941)," Ə.Şıxlinski" (1944-1945) və b. elmi-kütləvi kitab və məqalələri çap olunmuş və bu əsərlər H.Hüseynova böyük şöhrət qazandırmışdır. Onun Bəhmənyar, N.Gəncəvi, M.Füzuli, A.Bakıxanov, M.Kazım bəy, M.F.Axundzadə, H.Zərdabi və b. haqqında tədqiqatları Azərbaycan ictimai-fəlsəfi elminə böyük töhfə idi. Onun "XIX əsr Azərbaycanda ictimai və fəlsəfı fıkir tarixindən" (1949) əsərində Azərbaycan xalqının fəlsəfi və ictimai-siyasi fıkrinin əsas inkişaf mərhələləri müəyyənləşdirilmişdir. Bu əsərdə H.Hüseynov çox böyük yaradıcılıqla M.Ş.Vazehin, A.A.Bakıxanovun, M.F.Axundzadənin, H.Zərdabinin və digərlərinin dünya görüşlərini səciyyələndirmişdir. Eyni zamanda onun ədəbiyyatşünaslığa dair əhəmiyyətli əsərləri də olmuşdur. H.Hüseynovun Azərbaycan dilində dialektik və tarixi materializmə dair yazdığı əsərləri uzun illər Azərbaycan ali məktəblərində tələbələrin istifadə etdiyi əsas dərsliklərdən olmuşdur. O, həmçinin ADU-nun tarix fakultəsinin nəzdində ilk fəlsəfə şöbəsinin təşkilatçısı idi. H.Hüseynov həm də Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur.

Arxiv sənədlərinin araşdırılması və bir sıra yeni sənədlərin üzə çıxarılması əsasında deyə bilərik ki, partiya sıralarında olduğu müddətdə o, heç bir partiyaya zidd hərəkətlərə yol verməmiş, üzərinə düşən partiya və hökumət vəzifələrini dövrün tələblərinə uyğun şəkildə intizamla yerinə yetirmişdir. Elmi tədqiqat və elmi yaradıcılıq sahəsində böyük uğurlar əldə etmişdir. Klassiklərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir (7, 1). Heydər Nəcəf oğlu Hüseynovla bağlı 1949-1950-ci illərdə irəli sürülən ittihamlar haqqında arxiv materiallarını olduğu kimi təqdim edirik.

Arxiv materiallarında (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi: Fond l, siyahı 43, iş №76) göstərilir ki, ÜK(b)P MK yanında MELİ-nin (Marks-Engels-Lenin İnstitutu) Azərbaycan filialının

direktoru – Heydər Hüseynov partiya sıralarına daxil olarkən öz tərcümeyi-halında qohumları haqqında dəqiq məlumat verməmişdir (6, 1). Guya sonradan məlum olmuşdur ki, H.Hüseynovun atası – Hüseynov Nəcəf iri ticarətçi, böyük manufaktura sahibi olub. O, öz böyük oğlu Yusiflə birlikdə Yerəvan şəhərində “Ticarət evi”, mehmanxana, iki böyük meyvə bağına sahib olmuşdur. H.Hüseynovun iki böyük qardaşı Əkbər və Yaqub inqilabdan əvvəl və Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da, 1920-1921-ci illərdə Bakı şəhərində qənd və unun topdan satışı ilə məşğul olan ticarət mərkəzinə malik olublar (6, 2). Heydər Hüseynovun hər iki qardaşı Türkiyənin vətəndaşlığında olmuşlar, Əkbər Hüseynov 1930-cu ildə Türkiyəyə getmiş və sonra XX əsrin 50-ci illərində Tehranda yaşamışdır. Digər qardaşı – Yaqub Hüseynov isə Bakıda yaşamış, 1937-ciilədək Türkiyə paspotru daşımışdır.

Azərb.KP MK-nın 1949-cu il 2 fevral tarixli büro iclasında qeyd edilir ki, hələ kiçik yaşlarında olanda Heydər Hüseynov valideynlərindən ayrılaraq Bakıya gəlmiş, bir çox dostlarının dediyi kimi, o, Bakı şəhərində öz əməyi hesabına yaşamışdır. Lakin buna baxmayaraq o, partiyaya daxil olarkən guya öz yaxınlarının keçmişini, onların partiyaya zidd hərəkətlərini gizlətmişdir. Lakin Azərb. KP MK-nın 1954-cü il 18 may tarixli büro iclasında qeyd edilmişdir ki, H.Hüseynov partiyaya daxil olarkən heç də qohumları ilə bağlı faktları gizlətməmişdir. Bunun əksinə olaraq, Azərb. KP MK-nın 1950-ci il 18 mart tarixli büro iclasında qeyd edilmişdir ki, Böyük Vətən müharibəsi illərində Heydər Hüseynovun xaricdən məktub alması və bunu partiyadan gizlətməsi haqqında Azərb. KP MK-ya məlumat daxil olmuşdur. Mərkəzi Komitənin Büro iclasında bu məsələ müzakirə edilərkən H.Hüseynov xaricdən məktub alması faktını təksib etmiş və partiyanı aldatmaq yolunu tutmuşdur. Həmçinin büroda qeyd edilir ki, Heydər Hüseynov partiyaya daxil olarkən öz sosial vəziyyətini, xaricdə qohumlarının olduğunu da gizlətmişdir.

Azərb.KP MK-nın bürosu qeyd etmişdir ki, H.Hüseynov arvadının atası Abdullayev Süleymanın 1937-ci ildə Azərb. SSR XDİK-nin orqanları tərəfindən əks-inqilabi fəaliyyətinə görə həbs olunması barədə məlumat verməmişdir (8, 268). Azərb. KP MK-nın bürosu qeyd edir ki, H.Hüseynov ÜK(b)P MK yanında MELİ-nin Azərbaycan filialının direktoru olmaqla siyasi cinayətlərə yol vermişdir. O, Bakı bolşevik təşkilatının tarixi ilə bağlı materiallarla işləməyə şübhəli şəxsləri cəlb edib və daşnak Avakyana arxivdə işləməyə şərait yaradıb. Avakyan isə sonra antisovet fəaliyyətinə görə dövlət təhlükəsizlik orqanları tərəfindən həbs edilmişdir (8, 2). Bu faktlar Azərb. KP MK tərəfindən aşkar edilən zaman Hüseynov özünü qeyri-səmimi aparmış, özünü təmizliyə çıxarmağa, məsuliyyəti başqa şəxslərin üzərinə atmağa çalışmışdır. Bu faktlarla bağlı Azərb. KP MK-nın 1949-cu ilin fevralında keçirilmiş büro iclasında məsələ müzakirə edilmiş və ona ciddi xəbərdarlıq olunmuşdur. H.Hüseynov isə Azərb. KP MK-ya öz səhvlərini düzəldəcəyinə söz versə də, ona əməl etməmişdir (8, 3).

Azərb. KP MK-nın 18 mart 1950-ci il tarixli büro iclasında qeyd edilir ki, H.Hüseynov Azərb. KP MK-nın 1949-cu il fevral tarixli iclasının qərarından heç bir nəticə çıxarmamış və özünün partiyaya zidd fəaliyyətini davam etdirmişdir.

Həmin tarixli büro iclasında daha sonra qeyd edilmişdir ki, ÜK(b) P MK yanında MELİ-in Azərbaycan filialının direktoru və Azərb.SSR Elmlər Akademiyasının ictimai elmlər şöbəsinin rəhbəri olaraq H.Hüseynov öz vəzifəsindən istifadə edərək antibolşevik məzmunlu, qeyri-elmi xarakterli, mürtəce baxışları əks etdirən əsərlərin nəşrinə şərait yaratmış, 1949-cu ildə "dini və antisovet" xarakter daşıyan, marksist, bolşevik ideyalarına zidd mövqedən yazdığı "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" adlı əsəri ilə özünün partiyaya zidd hərəkətlərini davam etdirmişdir. Azərb. KP MK-nın büro iclasında göstərilir ki, Hüseynov bu əsərdə kobud siyasi və nəzəri səhvlərə yol vermiş və burjua mövqeyində durmuşdur. Həmçinin o, müridizmə düzgün siyasi qiymət verməmiş, müridizmi mütərəqqi milli azadlıq hərəkatı kimi səciyyələndirərkən pantürkistlərin, panislamistlərin və sovet xalqına düşmən olan digər mürtəce xarakterli şəxslərin fikirlərini təkrar etmişdir.

Büro iclasında qeyd edilmişdir ki, Hüseynovun müridizmə verdiyi qiymət müasir pantürkistlərin, panislamistlərin, ingilis-amerikan imperialistlərinin müdafiə etdiyi türk mürtəcelərinin əlində əsas fakt kimi istifadə olunur.

Hüseynov Azərbaycanda ictimai və fəlsəfi fikirlərin araşdırılmasını tarixi şəraitdən kənarda axtarmışdır, tarixi şəraitin rolunu qiymətləndirməmiş, ideologiya sahəsində sinfi mübarizənin rolunu marksist nöqteyi-nəzərdən izah edə bilməmiş, məsələlərin izahına idealist, millətçilik baxımından yanaşmışdır. Büronun iclasında o da qeyd edilir ki, H.Hüseynovun kitabı ideoloji sahədə partiyanın qarşısında duran aktual problemlərlə bağlı yazılmamışdır. Hüseynov öz kitabında islamın mürtəce rolunu açıqlamır, müasir idealist, mistik fəlsəfi cərəyanları tənqid etmir və təslimçi mövqe tutur. Əksinə o, kitab nəşr olunduqdan sonra onu təbliğ edir, kitabın geniş dairələrdə, dostları, tanışları arasında yayılmasına, təriflənməsinə çalışırdı.

MK-nın bürosunda xüsusi olaraq vurğulanmışdır ki, Hüseynov Azərb.KP MK-nın təbliğat şöbəsinin, respublika və SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun bir qrup elmi işçilərinin onun kitabı ilə bağlı tənqidi fikirlərinə əhəmiyyət verməmişdir. O, bu kitabında olan "nöqsanlar", mürtəce fikirlər" haqqında izahat verməmiş, heç büronun iclasına da gəlməmiş və özünü xəstəliyə vurmuşdur. Azərb. KP MK-nın bürosunda qeyd edilmişdir ki, kitab haqqında tənqidi rəyin mövcud olduğu və bunun Azərb. KP MK-ya məlum olduğunu bilə-bilə Hüseynov yenə də, belə bir rəyin olduğunu təkzib etmişdir. Həmçinin o, bu tənqidi qeydlərdən, ona olan iradlardan nəticə çıxarmaq və bu yoldan çəkinmək, nöqsanlarını, səhvlərini və partiyaya zidd hərəkətlərini etiraf etmək əvəzinə, öz hərəkətlərində çaşaraq və məsuliyyətdən qaçaraq özünə suiqəsd - intihar etmişdir. Büroda qeyd edilmişdir ki, bütün bunlar sübut edir ki, H.Hüseynov yanlış yolla partiya sıralarına daxil olmuş, O, partiyaya daxil

olmaqla, bundan öz maraqlarını, məqsədlərini həyata keçirmək üçün istifadə etmişdir. Sonda Azərb. KP MK-ın 18 mart 1950-ci il tarixli büro iclası qərara almışdır:

1. 1938-ci ildən ÜK(b)P-nin üzvü (partiya bileti № 1471660), Hüseynov Heydər Nəcəf oğlu partiyaya zidd hərəkərlərinə, qeyri-ciddiliyinə və partiya qarşısında ikiüzlülüyünə görə partiya sıralarından kənarlaşdırılsın.

2. Hüseynov ÜK(b)P MK yanında MELİ-nin Azərbaycan filialının direktoru və Azərbaycan Elmlər Akademiyasımn vitse-prezidenti vəzifəsindən uzaqlaşdırılsın. Bu qərarın təsdiqi ÜK(b) P MK-dan xahiş edilsin.

3. H.Hüseynovun kitabına verilmiş Stalin mükafatının geri alınması ilə bağlı ÜK(b) P MK-ya məktub hazırlanması Həsənov, Malyutin, Kirsanov və Zevin yoldaşlara tapşırılsın.

Azərbaycan K(b) P İmza:
MK-katibi

İ.V.Stalinin ölümündən (1953-cü il 5 mart) sonra N.S.Xruşşov Sov. İKP MK katibi kimi nəzarət etdiyi partiya aparatının və ali hərbi rəhbərlərin köməyi ilə siyasi rəqiblərinə - L.P.Beriyaya, Q.M.Malenkova və digər rəqiblərinə qalib gələrək Sovet dövlətinə rəhbərliyi ələ keçirdi. N.S.Xruşşov 1953-cü ilin sentyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin (Sov.İKP MK) birinci katibi seçildi. SSRİ-də siyasi rəhbərliyin dəyişməsi milli respublikalarda, o cümlədən Azərbaycanda rəhbərliyin dəyişməsinə səbəb oldu.

M.C.Bağırov cinayətkar əməllərinə görə 1953-cü ildə tutduğu vəzifədən uzaqlaşdırıldı və sonra Bakıda SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən ölüm cəzasına-güllələnməyə məhkum edildi (9, 1). Olkədə vəziyyət dəyişdi. Günahsız repressiyanın qurbanları olmuş görkəmli partiya, hökumət, elm və mədəniyyət xadimlərinə bəraət verildi.

Azərb.SSR Elmlər Akademiyasının 1956-cı il 15 may tarixli iclasında Heydər Nəcəf oğlu Hüseynovla bağlı məsələ müzakirə edilmişdir. Həmin müzakirənin materiallarını təqdim edirik.

M.C.Bağırovun respublikanın təsərrüfat və mədəni quruculuq sahəsindəki anormal və qüsurlu rəhbərliyinin nəticəsi olaraq 1950-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, Akademiyanın həqiqi üzvü, fəlsəfə elmləri doktoru, professor Heydər Hüseynov da ləkələnmiş, ona böhtan atılmış, o da bu haqsızlıqlara dözməyərək öz həyatına son qoymuşdur. İclasda qeyd edilmişdir ki, Heydər Hüseynov Azərbaycan fəlsəfə tarixi sahəsində çox görkəmli mütəxəssis olmuşdur. O, Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixinə, xüsusilə dialektik və tarixi materializm məsələlərinə dair çoxlu sayda monoqrafiya və məqalələrin müəllifidir. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsi ilə bağlı onun tərkibi müəyyən edilən zaman professor Heydər Hüseynov akademik və Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti təsdiq edilmişdir (11, 1). Azərb. SSR EA-nın iclasında qeyd edilir ki, H.Hüseynov uzun müddət Azərbaycan SSR Elmlər Akademiyasının ictimai elmlər şöbəsinə rəhbərlik etmiş, Sov. İKP MK yanında Marks-

Engels-Lenin İnstitutunun Azərbaycan filialının direktoru, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışmışdır. O, Azərbaycan xalqının və onun mədəniyyətinin, tarixinin öyrənilməsi sahəsində geniş, sanballı elmi tədqiqat işləri aparmış, marksizm-lenizm klassiklərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmiş, elmi kadrların yetişdirilməsində çox böyük rol oynamışdır. Elmi kadrların hazırlanmasında yaxından iştirak etməklə, professor H.Hüseynov böyük elmi irs qoyub getmişdir. Bu irsin bərpası, öyrənilməsi və təbliği böyük elmi, siyasi və praktiki, tərbiyəvi əhəmiyyətə malikdir.

Professor H.Hüseynov ölümündən bir qədər əvvəl, məlum olduğu kimi, bütün tutduğu vəzifələrdən uzaqlaşdırılmış, Elmlər Akademiyasının həqiqi üzvlüyündən azad edilmiş, partiya sıralarından kənarlaşdırılmışdır.

Həmçinin ittifaq hökumətindən-SSRİ Nazirlər Soveti yanında ədəbiyyat və mədəniyyət sahəsində Stalin mükafatı üzrə komitəsindən professor H.N.Hüseynovun "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" adlı əsərinə görə aldığı Stalin mükafatından məhrum edilməsi haqqında qərara yenidən baxılmasını xahiş edirik

Azərbaycan SSR EA
Prezidenti: M.M.Əliyev (14, 261).

## ƏDƏBİYYAT


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2005, 528 s.
2. Azərbaycan Respublikası 1991-2001. Bakı: Azərnəşr, 2001, 360 s.
3. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı: Azərnəşr, 2004, 326 s.
4. Azərbaycan tarixi, VII c. Bakı: Elm, 2003, 676 s.
5. Həsənli C. Azərbaycanda Milli Məsələ:siyasi rəhbərlik və ziyalılar 1954-1959. Bakı: Adiloğlu, 2008, 544 s.
6. "Xalq qəzeti", 1994, 5 oktyabr
7. Zeynalov İ.X. Şimali Azərbaycan ikinci dünya müharibəsindən sonrakı dövrdə (1946-1960-cı illərdə). Azərbaycan tarixi. XIX-XXI əsrin əvvəli Ali məktəblər üçün mühazirələr kursu. Bakı: BDU, 2010, 544 s.
8. Azorbaycan Sovet Ensklopediyası. 10 cilddə, X c., Bakı:1987
9. Azərbaycan Respublikası Prezidentinin işlər idarəsi siyasi sənədlər Arxivi, Fond 1, siyahı 43, iş 76, vərəq 276 (ARPİİSSA, F.l, Siy.43, iş 76, v.276).
10. ARPİİSSA , F.l. Siy.43, iş 76,v. 269,270.
11. M.C. Bağırovun Məhkəməsi.
12. Azərb. SSR Elmlər Akademiyasının 15 may 1956-cı il tarixli iclası. ARPİİSSA, F.l, Siy.43, iş.76,v.260-261
13. ARPİİSSA,F.l, Siy.46, iş.88.
14. ARPİİSSA, F.l, Siy.42, iş.79.
15. ARPİİSSA, F.l, Siy.46, iş.78.
16. ARPİİSSA, F.l, Siy.40, iş.l60.
17. ARPİİSSA, F.l, Siy.45, iş.71.

## НОВАЯ ВОЛНА РЕПРЕССИИ В ПОСЛЕВОЕННЫЕ ГОДЫ. ПРАВДА О ГЕЙДАРЕ ГУСЕЙНОВЕ

**И.Х.ЗЕЙНАЛОВ, Х.Р.САФАРОВА**

### РЕЗЮМЕ

В статье рассматривается обострение общественно-политической ситуации в республике послевоенные 1946-1956 годы, бесчинства М.Д.Багирова и его подручников в условиях усиления командно-административного режима и культа личности И.В.Сталина.

В статье также изучается новая волна репрессии против представителей интеллигенции, государственных деятелей, деятелей культуры и науки как один из показателей обострения тоталитарного режима в республике.

В статье главное внимание уделяется на рассмотрение доклада М.Д.Багирова на заседании политического бюро АКП (б) от 18 марта 1950 года, сильно была критикована и оклеймена книга известного азербайджанского философа, академика Гейдара Гусейнова "Из истории общественной философской мысли в Азербайджане в XIX веке», рассматриваются принятые резолюции.

В статье также рассматривается новое политическое сложившиеся в республике после смерти И.В.Сталина, смена в руководстве республики и реабилитация Г.Гусейнова в 1956 году.

**Ключевые слова:** ЦК Аз.КП, пленум, съезд, Гейдар Гусейнов, философ, тоталитарный режим, реабилитация

## A FRESH WAVE OF REPRESSION IN POST-WAR YEARS. THE TRUTH ABOUT HEYDAR HUSEYNOV

**I.Kh.ZEYNALOV, Kh.R.SAFAROVA**

### SUMMARY

The article studies aggravation of social-political situation in the republic in the postwar 1946 – 1956 years, atrocities by M.D.Baghirov and his hand assistants in the conditions of command administrative regime and cult of I.V.Stalin's personality.

**Key words:** Central Committee of Az. CP, congress, phylosophy, Heydar Huseynov, totalitarian regime, rehabilitation